# IV İslam Həmrəylik Oyunlarına hazırlıq işləri vaxtında və yüksək səviyyədə həyata keçiriləcək

*Məlum olduğu kimi, sentyabrın 23-də 2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə birinci iclası keçirilib. Qeyd edək ki, ölkə rəhbəri "IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" 18 sentyabr 2015-ci il tarixli sərəncam imzalamışdır. Həmin sərəncama əsasən Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva sədr olmaqla Təşkilat Komitəsinin üzvlərdən ibarət tərkibi yaradılmışdır.*

*Qeyd edək ki, 2017-ci ilin may ayında keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəylik Oyunlarında 57 islam ölkəsindən 20 idman növündə 5 mindən çox idmançı öz gücünü sınayacaq. Bu yarışların bir özəlliyi də ondadır ki, qeyri-ənənəvi idman növü olan milli zorxana oyunu üzrə mübarizənin aparılması nəzərdə tutulub. Vurğulayaq ki, respublikamızda idman təşkilatları sırasında Azərbaycan Milli İdman Növləri Assosiasiyası da vardır. Ölkəmizdə bu idman növünə maraq artmaqla bərabər, qələbələrin sayı da çoxalıb. Azərbaycanda idmanın inkişafı, beynəlxalq tədbirlərin keçirilməsi, o cümlədən ilk Avropa Oyunlarının yüksək səviyyədə başa çatması, ölkəmizin yeni möhtəşəm yarışlara ev sahibliyi etməsi və sair məsələlərlə bağlı* ***Azərbaycan Milli İdman Növləri Assosiasiyasının prezidenti, əməkdar bədən tərbiyəsi və idman xadimi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kafedra müdiri, professor Xanlar Qurbanov*** *öz fikirlərini bizimlə bölüşdü:*

—Azərbaycan son illər ərzində həm bölgədə, həm də dünyada çox böyük nüfuz qazanmış, iqtisadi cəhətdən sürətli inkişaf edən ölkələr sırasına daxil olmuşdur. Ölkəmizin iqtisadi qüdrətinin artması, digər sahələrlə yanaşı, idmanın inkişafına da təsir edir. Məhz bunun nəticəsidir ki, bir çox istiqamətlərdə olduğu kimi, Azərbaycan Respublikası həm də dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır. İslam aləmində özünəməxsus mövqeyə malik respublikamızın mövcud potensialı və gerçəkləşdirdiyi genişmiqyaslı müasir infrastruktur layihələri idman oyunlarının sağlam rəqabət və dostluq şəraitində təşkili üçün əlverişli zəmin yaradır.

Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri cənab İlham Əliyev Təşkilat Komitəsinin birinci iclasındakı çıxışında bu barədə demişdir: "2017-ci ildə Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, böyük beynəlxalq tədbirdir. Həm dünya, həm İslam aləmi üçün çox önəmli idman yarışmasıdır. Bu oyunların Azərbaycanda keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Azərbaycanda bugünə qədər bütün mötəbər beynəlxalq tədbirlər ən yüksək səviyyədə keçirilmişdir. Eyni zamanda, biz bunu İslam aləminin Azərbaycana, onun inkişafına verdiyi yüksək dəyər kimi dəyərləndiririk və öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, bu oyunlar yüksək səviyyədə keçirilsin".

Məlumat üçün bildirək ki, hələ 2013-cü il iyulun 24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında səsvermə zamanı Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməsi haqqında qərar qəbul edilmişdir. IV İslam Həmrəylik Oyunlarının 2017-ci ilin may ayında keçirilməsi nəzərdə tutulub. Bu oyunlarda 57 İslam ölkəsinin nümayəndələrinin iştirakı gözlənilir. İlkin razılaşmalara əsasən, 20 idman növündə yarışların aparılması planlaşdırılıb. Yarışlara 5 mindən çox idmançının qatılacağı nəzərdə tutulmuşdur. Yeri gəlmişkən, "Bakı-2015" ilk Avropa Oyunlarında dünyanın 50 ölkəsindən 6 mindən çox idmançı 20 idman növü üzrə (16-sı olimpiya, 4-ü qeyri-olimpiya) öz güclərini sınadılar. Xatırlayaq ki, bu gün də idmançılarımızın 56 medal qazanmasını (Rusiya Federasiyasından sonra ikinci yeri tutmaqla, bunlardan 21-i qızıl, 15-i gümüş, 20-si isə bürünc əyar olmuşdur) böyük qürur və sevinc hissi ilə yada salır.

Həmçinin oyunlar çərçivəsində paralmipiya üzrə paraatletiklər və paracüdoçuların mübarizəsi gözlənilir. Eyni zamanda bu oyunları fəqləndirən digər cəhətlərdən biri də qeyri-ənənəvi idman növü olan milli zorxana oyunu üzrə mübarizənin aparılması olacaq. Qeyd edim ki, Azərbaycanda bir çox idman federasiyaları ilə yanaşı, həm də Azərbaycan Milli İdman Növləri Assosiasiyası fəaliyyət göstərir. Ümumiyyətlə, İslam Həmrəylik Oyunları sırasına atletika, gimnastika, güləş, boks, cüdo, taekvondo, ağır atletika, tennis, stolüstü tennis, atıcılıq, üzgüçülük, basketbol, həndbol, voleybol, futbol, karate və sair daxildir.

"Bakı-2015" ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsi həm infrastruktur yaradılmasında, həm də növbəti tədbirlər üçün təşkilati, idarəetmə, loqistika işləri, kommunikasiya, informasiya və sair sahələrdə bizə zəngin təcrübə qazandırdı. Birinci Avropa Oyunları ərəfəsində yaradılmış maddi-texniki baza ona imkan verir ki, IV İslam Həmrəylik Oyunları da mövcud idman obyektlərində keçirilsin. Onların hazırlıq səviyyəsi beynəlxalq federasiyaların texniki tələblərinə tam cavab verir. Bəli, istifadə olunacaq bütün idman obyektləri ən yüksək səviyyədədir.

Təşkilat Komitəsinin birinci iclasında qeyd edildiyi kimi, heç bir yeni obyektin tikintisinə ehtiyac yoxdur. İclasda həmçinin vurğulanmışdır ki, IV İslam Həmrəylik Oyunlarına hazırlığın ilkin mərhələsində yarışların keçirilmə yerləri də müəyyən edilib. Belə ki, yarışların keçiriləcəyi idman obyektləri bunlardır: Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdman Sarayı, Bakı İdman Sarayı, Baku Crystall Hall, Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, Bakcell Arena, Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi. Eyni zamanda hansı idman növlərinin hansı arenalarda təşkili də ilkin olaraq müəyyənləşdirilmişdir. Belə ki, güləş və cüdo Heydər Əliyev adına İdman Arenasında, voleybol, boks, taekvondo, karate Baku Crystall Hallda, üzgüçülük Su İdman Sarayında, tennis Bakı Tennis Akademiyasında, atıcılıq Bakı Atıcılıq Mərkəzində, basketbol, həndbol, ağır atletika Bakı Ekspo Mərkəzində, futbol yarışlarının isə Olimpiya Stadionunda və Bakcell Arenada keçirilməsi nəzərdə tutulub. Oyunlarda iştirak edəcək idmançıların Atletlər Kəndində yerləşdirilməsi planlaşdırılıb.

Yazının əvvəlində qeyd etdiyim kimi, IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinə rəhbərlik ölkə Prezidentinin müvafiq sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, millət vəkili, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya həvalə olunub. Həm "Eurovision" mahnı müsabiqəsinin Təşkilat Komitəsinə, eyni zamanda, "Bakı-2015" ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva rəhbərlik etmişdir. O da bəllidir ki, hər iki beynəlxalq tədbir ən yüksək səviyyədə keçirilmişdir. Bunu həmin yarışmalarda iştirak etmiş bütün idmançılar və mütəxəssislər, həmçinin Azərbaycana gəlmiş qonaqlar və televiziya ekranlarında izləmiş milyonlarla insan təsdiq edir və yüksək dəyərləndirir.



İlk Avropa Oyunları başa çatdıqdan sonra iyunun 29-da bu yarışlarda qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlarla keçirilən görüşdə nitq söyləyən möhtərəm Prezidentimiz Təşkilat Komitəsinin fəaliyyəti barədə demişdir: "Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumat verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə Oyunların keçirilməsində heç bir problem yaşanmadı.

Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə, ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir".

Bəli, tam əminliklə vurğulamaq olar ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsi IV İslam Həmrəylik Oyunlarına istər hazırlıq işlərini, istərsə də yarışların gedişini yüksək səviyyədə keçirməklə öz öhdəsinə düşən vəzifələri ən yüksək səviyyədə yerinə yetirəcəkdir. Əvvəl, həm 2012-ci il "Eurovision" mahnı müsabiqəsində, həm də "Bakı-2015" ilk Avropa Oyunlarında qazanılmış təcrübə bunu deməyə əsas verir.

Azərbaycanın birinci xanımı, Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva birinci iclasdakı çıxışında bildirmişdir ki, Təşkilat Komitəsi IV İslam Həmrəylik Oyunlarının ən yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Təşkilat Komitəsinin iclasına yekun vuran Azərbaycan Prezidenti cənab İlham Əliyev qarşıda duran vəzifələrlə bağlı bildirmişdir: "Oyunların başlanmasına iki ildən az vaxt qalır. Oyunlar 2017-ci ilin may ayında keçiriləcəkdir. Ona görə, Təşkilat Komitəsi artıq bu gündən fəal işə başlamalıdır. Bilirəm ki, bugünə qədər hazırlıq işləri aparılmışdır. Bu gün bu, məruzələrdə də səsləndi. Bütün qurumlar əlaqəli şəkildə işləməlidir ki, Oyunları yüksək səviyyədə keçirək. Bir daha demək istəyirəm ki, biz Avropa Oyunlarına göstərdiyimiz yanaşmanı bu Oyunlarında da göstərməliyik. Bu Oyunlar Avropa Oyunlarından az əhəmiyyət kəsb etmir. Elə etməliyik ki, bir daha Azərbaycan öz qonaqpərvərliyini, təşkilatçılıq qabiliyyətini, ümumiyyətlə, öz potensialını bütün dünyaya göstərsin".

**Söhbəti apardı:**
**Ramiz YUSİFLİ,**
**"Respublika".**